UOT7(091)

**Türkan Abbasova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail: turkan.abbasli@mail.ru**

# MİLLİ TƏSVİRİ SƏNƏT ƏNƏNƏLƏRİMİZİN FORMALAŞMASINDA AZƏRBAYCANIN ƏMƏKDAR RƏSSAMI ƏLİ VERDİYEV YARADICILIĞININ ROLU

**Xülasə:** Əli Verdiyevin təsviri sənət tariximizin zəngin mədəni irsinin və sənət ənənələrinin formalaşmasındakı rolu danılmazdır. Milli şüur üzərində qurulan diktatorluğun get-gedə zəifləməsi rəssamların fərdi yaradıcılıq prinsiplərinin və özünəməxsusluğunun formalaşmasına təkan verir. Nikbin ruhlu xalq yaradıcılığı ənənələri o dövrün ictimai quruluşuna və ideoloji-siyasi prinsiplərinə tam uyğun görünürdü. Ümumiyyətlə, Əli Verdiyevin əsərlərinin bədii-estetik və ya bədii-texniki həllində məhz milli realizm ənənələrinə söykənməsini nəzərə almalı olsaq, o zaman rəssamın yaradıcılığının qədim bədii və milli mənəvi dəyərlərin yeni və özünəməxsus təfsiri olduğunu deyə bilərik. Bilavasitə onun milli mənəvi ənənələrdən yüksək sənətkarlıqla faydalanmasının nəticəsidir ki, rəssamın rənglər və ağ-qara cizgilərlə ifadə olunmuş kompozisiyalarında ənənə və müasirliyin uğurlu nəticəsini müşahidə etmək mümkündür.

**Açar sözlər:** ənənə, müasir, müstəqillik, rəssam, əsər, milli.

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri olan Azərbaycanın Əməkdar rəssamı Əli Verdiyevin əsərləri bənzərsizliyi, navatorluğu və özünəməxsusüslub xüsusiyyətləri ilə fərqlənir. Onun əsərlərinin təsviri sənəttariximizin parlaq nümunələrindən hesab edilməsi qəbulolunandır. Əli Verdiyev bütün yaradıcılığı boyu müxtəlif janr və mövzularda yaratmış olduğu çoxsaylı əsərləri ilə özünü istedadlı və bacarıqlı rəssam kimi təsdiqləməyə nail olmuşdur. Əli Verdiyevin təsviri sənət tariximizin zəngin mədəni irsinin və sənət ənənələrinin formalaşmasındakı rolu danılmazdır.

Əli Verdiyevin yaradıcılığında xalqımızın milli-mənəvi dünyası, estetik baxışları, məişət aləmi, adət-ənənələri, həyat tərzi, dünya görüşü və tarixi, fəhlələrin, müasirlərinin

və tarixi şəxsiyyətlərin obrazları əks olunmuşdur. Bədii ifadənin realistik vasitələrindən istifadə edən rəssam öz əsərlərini böyük ustalıqla yaratmışdır. Onun əsərləri ifadə dilinin orijinallığı və fərdiliyi, monumentallığı və üslub reallığı ilə fərqlənir.

Qeyd edək ki, Əli Verdiyevin yaradıcılığı, təsviri sənətimizin milli özünəməxsusluğunun öyrənilməsi və yaradıcılıq baxımdan dərk olunmasının ən gözəl nümunəsidir. Rəssam özündən əvvəl mövcud olmuş bədii irsin ən gözəl ənənələrini və realist sənətin əsaslı nailiyyətlərini əsas tutaraq müxtəlif mövzu, üslub, janr seçimi ilə diqqəti cəlb edən dəyərli sənət nümunələri yaratmışdır.

Əli Verdiyev yaradıcılığının geniş diapazona, zəngin bədii təxəyyülə, incə zövqə malikdir. Rəssamın yaradıcılığı istər janr, istərsə də mövzu rəngarəngliyi, fərdi metod və üslub xüsusiyyətləri ilə seçilir. Hər zaman yeni bədii təsvir vasitələri axtarışında olan rəssam daima yeniliyə can atmış, təsviretmə xüsusiyyətləri ilə diqqəti cəlb etmişdir. Əli Verdiyevin əsərləri zamanın təzadlı axarında özünün bədii dəyərini qoruya bilib. Belə ki, cəmiyyət qarşısında öz böyük məsuliyyətini hiss edən rəssam daim daha mühüm, aktual mövzuların axtarışında olmuşdur. Onun əsərləri hər dövr üçün çox maraqlı və aktualdır.

Məhz 1960-70-ci illərdə ilk dəfə olaraq ənənəvi şüurun əsas prinsipləri dəzgah rəngkarlığına peşəkar dərəcədə daxil olur. Əsasında təbiət və insan məişətinin harmoniyası duran mənəvi-fəlsəfi dünyagörüşü ənənəvi şüurun tam məğzini ifadə edə bilir.Realizmin Azərbaycan rəngkarlığında inkişafı Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, E.Məmmədov, B.Əliyev, Tahir Salahov, Əli Verdiyev və bir çox başqa bu kimi sənətkarların yaradıcılığı ilə birbaşa və sıx şəkildə bağlı olmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu dövrdə portret janrı ilə bir sırada dayanan mənzərə və məişət janrlarının üstünlük təşkil etməsini səciyyələndirən əsas amillər milli rəngkarlıq məktəbindəki, mentallıq və ənənə, eyni zamanda xalq həyatının özünəməxsusluğudur. Portret, mənzərə və məişət janrlarında yaradılan tablolar mövzu hüdudları geniş olsa da realizm çərçivəsindən çıxmırdı.

Bu dövr Azərbaycan rəssamlarının Avropa bədii mədəniyyətini yüksək səviyyədə mənimsəmələri milli bədii sistemin tam fərqli səviyyədə inkişafına təkan vermişdir. Qərblə Şərqin bədii sistemlərinin sintezdə verilməsi bu dövr üçün xarakterik, mühüm bədii amillərdən biri kimi hesab olunur. Eyni zamanda sərt ideoloji təzyiqlərin yaradıcı vəyetişməkdə olan gənc rəssam nəslinə təsirsiz ötüşməsi mümkün deyildi.

Milli şüur üzərində qurulan diktatorluğun get-gedə zəifləməsi rəssamların fərdi yaradıcılıq prinsiplərinin və özünəməxsusluğunun formalaşmasına təkan verir. Nikbin ruhlu xalq yaradıcılığı ənənələri o dövrün ictimai quruluşuna və ideoloji-siyasi prinsiplərinə tam uyğun görünürdü.

XX əsrin əvvəllərində Bakıda rəssamlıq məktəbinin açılması ilə təsviri sənətin realizm ənənələrinə əsaslanan metodika üzrə tədrisi XX əsr Azərbaycan təsviri sənətində müxtəlif janrların inkişafı üçün şərait yaratdı.

Böyük Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan rəngkarlığının inkişafı müasir mövzuların üstünlüyü şəraitində keçsə də, həmin dövrdə rəssamlarımız tarixi janr sahəsində fəaliyyəti dayandırmamış, Azərbaycan xalqının şanlı inqilabi ənənələrini, zəhmətkeşlərin azadlıq uğrunda apardığı mübarizəsini əks etdirən bir sıra maraqlı tablolar yaratmışlar. Daha geniş mənada desək, Böyük Vətən müharibəsi ölkəmizin ictimai-siyasi,hərbi qüdrətinin bəlli olmasında ciddi bir sınaq idi ki, xalqımız böyük rəşadətlə hünər göstərərək bunun öhdəsindən layiqincə gələ bilmişdir.

Rəssam əsərlərində bir qayda olaraq klassik ənənələrdən qaynaqlanan təqdimata üz tutur. Qeyd edək ki, istər mövzuların müxtəlifliyi, onların bədii həlli, istər kompozisiya, bədii forma, milli ənənələrə bağlılıq, istərsə də yaradıcılıq axtarışları nöqteyi-nəzərindən Əli Verdiyevin yaradıcılığı olduqca rəngarəngdir. Rəssamın yaradıcılığında maraq doğuran cəhətlərindən biri də bədii axtarışlarla real həyatın, dövrün, eyni zamanda fantaziya ilə təbiiliyin dəqiq sintezinin üstünlük təşkil etməsidir. Bu cəhət rəssamın birçox əsərlərində mövzusundan asılı olmayaraq, özünü hər zaman büruzə verir.

Rəssamın bir çox məişət janrında olan əsərlərində milli həndəsi ornamentlərlə bəzədilmiş xovlu və xovsuz xalça məmulatının təsviri əsaslı yer tutur. Belə tablolarda rəssamın milli-mənəvi dəyərlərimizə və xalça sənətimizin incəliklərinə böyük ustalıqla bələd olduğuaydın şəkildə nəzərə çarpır. Belə ki, xalçaların təsvirində qara, qırmızı, sarı rənglərin hormonik birləşməsi, həssas kontur, sadə perspektiv həlli, eləcə də ornamentlərin ahəngdarlığı, yumşaq ritm – bütün bunlar Əli Verdiyevin bilavasitə milli yaradıcılıq ənənələrindən qaynaqlanmasının açıq göstəricisidir.

Ümumiyyətlə, Əli Verdiyevin əsərlərinin bədii-estetik və ya bədii-texniki həllində məhz milli realizm ənənələrinə söykənməsini nəzərə almalı olsaq, o zaman rəssamın yaradıcılığının qədim bədii və milli mənəvi dəyərlərin yeni və özünəməxsus təfsiri olduğunu deyə bilərik. Bilavasitə onun milli mənəvi ənənələrdən yüksək sənətkarlıqla faydalanmasının nəticəsidir ki, rəssamın rənglər və ağ-qara cizgilərlə ifadə olunmuş kompozisiyalarında ənənə və müasirliyin uğurlu nəticəsini müşahidə etmək mümkündür.

Əli Verdiyev rəngkarlıq əsərlərində olduğu kimi rəsm əsərlərində də realizm ənənələrini yüksək dərəcədə nümayiş etdirmək gücünə malikdir. Onun qrafika əsərləri Azərbaycan rəngkarlığının realist plastikası və poetik lirikasını özündə birləşdirir. Onun əsərlərinin ifadəliliyi zərif təsvir üsulu ilə hamar cizgilərin qarşılıqlı əlaqəsi və müəyyən ölçülü kompozisiyaların incə tərzdə təsvirindən irəli gəlir. Bu kompozisiyalardakı əhval- ruhiyyə bəzən cizgilər, bəzən isə rəng palitrası ilə göstərilir. Eləcə də bəzi kompozisiyalarda açıq və dekorativ, bəzilərində isə bir rəngli bədii həllə səciyyələnir. Rəssamın qrafika əsərləri eyni zamanda, realizmi, emosionallığı və ifadəliliyi ilə seçilən portretləri özündə əks etdirir.

Özünü Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi kimi təsdiqləyən Respublikanın Əməkdar rəssamı, professor Əli Verdiyev milli mədəni irsimizi bütün mənalarda zənginləşdirən sənətkarlardandır. Rəssamın yüksək bədii-estetik dəyərə malik olan və özündə milli realizm ənənələrini, eləcə də “sərt üslub”un lirik-romantik çalarlarını özünəməxsus şəkildə əks etdirən çoxsaylı rəngkarlıq və qrafika əsərləri bunun əyani göstəricisidir. Vurğuladığımız məziyyətləri onun müxtəlif janr və mövzularda işlənilmiş əsərlərində müşahidə etmək mümkündür.

Milli ənənələrimizin dərin köklərinə arxalanan rəssam, yaradıcılığında özünəməxsus bir üslub yaratmağa müyəssər olmuşdur. Əli Verdiyevin əsərləri nə qədər hərəkətli, emosional olsa da insanı qətiyyən yormur, əksinə tamaşaçıya xoş təəssürat bağışlayır.

Çox zaman rəssamlar əsərlərinə seçdikləri qəhrəmanların obrazlarında öz iztirablarını, mənəvi aləmlərini, təlatümlərini əks etdirirlər. Əli Verdiyev heç bir zaman mövzu axtarmamışdır. Onun sözlərinə görə mövzular özü onu taparaq molbert arxasına keçməyə və yeni-yeni əsərlər yaratmağa vadar etmişdir.

Əli Verdiyevin vətənimizin müxtəlif bölgələrində müşahidə etdiyi səhnələr də

onun əksər əsərləri üçün ilham qaynağına çevrilmişdi. Rəssamın müxtəlif janr və

mövzuda işlənilmiş əsərlərinin, xüsusilə mənzərə tablolarının Azərbaycan rəngkarlığı üçün yenilik kimi qəbul olunmasını şərtləndirən başlıca amil heç şübhəsiz, həm də onun fərqli məkan konsepsiyasını yaratması ilə bağlıdır.

Keçmişimizlə bu günümüzü hər zaman sintez şəklində tamaşaçıya təqdim edən rəssam qədim xalq sənətimizdən geniş bəhrələnmişdir. Xalq sənətinin əsası olan dekorativlik, xətlərin və paralellərin bir kompozisiya ətrafında birləşməsi, dəqiq ölçülər, bədii materialların ifadəliliyi, rəng qammasının intensivliyini öz yaradıcılığında cəmləyənrəssam hər zaman milli köklərinə olan bağlılığına sadiq qalmışdır.

İllər ötdükcə yeni-yeni bədii ifadə üsullarına yiyələnən Əli Verdiyev rəsm texnikasını və rəngləri özünə tabe etmə qabiliyyəti diqqətimizdən yayınmır. Qeyd edəkki, rənglər yalnız göz oxşayan vasitə deyil, eyni zamanda kəsərli söz kimi güclü bədii təsirə malikdir. İstər həyatın bütün məqamlarını, istər insan duyğularını, sevinci, kədəri rənglərlə ifadə etmək bacarığına malik olan rəssamlar rənglər vasitəsilə qəlbimizə, ruhumuza yol tapır, yaddaşlarımızda sevincli və bəzən də kədərli izlər buraxırlar.

Əsərləri bənzərsizliyi, novatorluğu və özünəməxsus üslub xüsusiyyətləri ilə seçilən Əli Verdiyevin Sovet ideologiyasının təsiri ilə formalaşmağa başlamış yaradıcılığında Azərbaycanın milli qəhrəmanlarının, tarixi şəxsiyyətlərin, əmək adamlarının canlandığı çoxsaylı əsərlərində milli ruh əsla kölgə altında qalmamışdır. Rəssamın yaratdığı bir çox əsərlərdə dövrün sosial-siyası, milli-psixoloji, mənəvi-əxlaqi və ideya-estetik ritmi bütün rəngarəngliyi ilə görünür, təsvir edilir. Bu da rəssamın ideya baxımından ayıq, sənətkarlıq cəhətdən iti, bədii-estetik xüsusiyyətlərinə görə realist təsvir ustalığından irəli gəlir.

Rəssam incəsənətdə hər zaman öz yolu ilə getmiş, heç bir sənətkarı təkrarlamamış, yaradıcılığı boyu fərqli və fərdi dəst-xəttini formalaşdırmışdır. Əli Verdiyevin yaradıcılıq dəst-xəttindəki təkrarolunmazlıq və özünəməxsusluq 1980-ci illərin sonundan etibarən daha da güclənərək bir çox sənət incilərinin meydana çıxmasına səbəb olur. Bu zaman kəsiyində yaratmış olduğu əsərlər onun yaradıcılığında yalnız monumentallığa deyil, eyni zamanda milli ruha və rəng ahəngdarlığına olan marağının daha da güclədiyini təsdiqləyir.

Əsasən müstəqillik dövründə yaratmış olduğu bir çox əsərlərində aydın ifadə olunmuş kompozisiya quruluşu və bədii həlli, xüsusi seçilmiş kolorit Əli Verdiyevin bir rəssam kimi daha da kamilləşməsindən xəbər verir. Rəssamın əsərlərində onun dəst-xəttini müəyyənləşdirən konkret rəng çaları axtarmağa heç bir ehtiyac yoxdur, çünki rəssam yaratdığı hər əsərin mövzusuna və süjet xəttinə uyğun olan rəng qamması seçmişdir, bununla da əsərlərin əhval-ruhiyyəsini bütün vasitələrlə dəqiq çatdırmağa nail olmuşdur.

Bu dövr Əli Verdiyevin yaradıcılığında milli rəngkarlığımıza xas olan səciyyəvi xüsusiyyətlər öz parlaq ifadəsini tapmış və dövrün aparıcı mövzuları əks olunmuşdur. Onun üstünlük verdiyi janr və mövzular, özünəməxsus ifadə manerası və üslubu ilə seçilir.

Rəssamın əvvəlki realizm tutumlu kompozisiyalarından fərqli olaraq, sonrakı illərdə daha da yeniləşən ifadə tərzində mənzərəyə özünəməxsus bədii münasibət açıq-aydın seçilir.

Həyati müşahidələrin genişliyi və rəngarəngliyi, fərdi yaradıcılıq axtarışlarının müxtəlifliyi, müasirlik və sevgi hissiyyatı Əli Verdiyevin yaradıcılığını səciyyələndirən əsas keyfiyyətdir. Onun portretlərində təsvir olunan şəxslərin zahiri oxşarlığı, fərdi

keyfiyyətləri, eləcə də onların daxili aləmi-psixoloji xüsusiyyətləri olduqca qabarıq şəkildə əks etdirilib.

İstər ölkəmiz müstəqillik qazananmamışdan əvvəl, istərsə də sonra rəssamlrımız tərəfindən dini mövzulara müraciət kifayət qədər az olmuşdur. Buna rəğmən Əli Verdiyev hələ müstəqillik dövründən qabaq – 1973-cü ildən bir çox dini məzmunlu süjetli kompozisiyalar ərsəyə gətirmişdir.

Əli Verdiyev yaradıcılığı müasir dövrdə tamaşaçı diqqətini özünə cəlb edən, istedadlı rəssamların bütöv bir nəslini yetişdirmiş gözəl müəllim olmuşdur.

Bütün həyatını yaradıcılığa və gənc rəssam nəsli yetişdirməyə sərf etmiş sənətkar müasir rəssamlıq sənətinə özünəməxsus üslubu ilə daxil olmuşdur. Onun təqdim olunan rəngkarlıq əsərləri təsviri sənətimizin bu günü barədə təsəvvürü daha da dolğunlaşdırır.

Qeyd edək ki, 2013-cü ildə də Azərbaycan rəssamlarının iştirak ilə "Əsrlər-nəsillər" adlı tarixi mövzulu sərgi-müsabiqəsi keçirilmişdir. Təəssüflər olsun ki, sözü gedən sərgidə göstərilən təsviri sənət nümunələrinin bədii-tarixi həlli göstərdi ki, müasir dövr Azərbaycan rəssamlarının əksəriyyəti bu sınağa hələ kifayət qədər hazır deyilmiş. Ancaq Əli Verdiyevin az da olsa tarixi mövzuda yaradılmış uğurlu və hər birimizin qürur qaynağına çevrilmiş əsərlərinin mövcudluğu bu mənada müsbət hal kimi qiymətləndirilməlidir.

Həyati müşahidələrin genişliyi və rəngarəngliyi, fərdi yaradıcılıq axtarışlarının müxtəlifliyi, müasirlik və sevgi hissiyyatı Əli Verdiyevin yaradıcılığını səciyyələndirən əsas keyfiyyətdir. Onun portretlərində təsvir olunan şəxslərin zahiri oxşarlığı, fərdi keyfiyyətləri, eləcə də onların daxili aləmi-psixoloji xüsusiyyətləri olduqca qabarıq şəkildə əks etdirilib.

## Ədəbiyyat:


1. Azərbaycan incəsənəti / K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. B., İşıq, 1992, 344 s.
2. Azərbaycan incəsənəti. Salamzadə Ə., Rzayev N., Kərimov K., Əfəndiyev R., Həbibov N. - Bakı. «Maarif», 1977, 212 s.
3. Azərbaycan SSR-nin incəsənəti. M.Nəcəfov. Leninqrad, Avrora, 29 s.
4. Əli Verdiyev. Kataloq. Bakı, 2015. 31 s.
5. Həbibov N. Azərbaycan SSR təsviri incəsənəti. Bakı, «İşıq», 1961, 78 s.
6. Həbibov N. Azərbaycan SSR-nin təsviri incəsənəti. B., Azərnəşr, 1959, 19 s.
7. Həbibov N. Nikbin ruhlu tablolar. "Ədəbiyyat və incəsənət" qəz., 1986, 28 fevral, № 9 (2196).


**Тюркан Аббасова**

**Роль Али Вердиева в формировании художественных традиций изобразительного искусства Азербайджана**

**Резюме**

Роль Али Вердиева в формировании богатого культурного наследия и художественных традиций в истории изобразительного искусства Азербайджана неоспорима. Постепенное ослабление установившейся в советское время цензуры в национальном сознании способствовало формированию индивидуальных художественных принципов и личности художников. Оптимистичный дух

народного творчества, казалось, соответствовал социальной структуре и идеологически-политическим принципам той эпохи. Художественно-эстетическое или художественно-техническое решение Али Вердиева основано на традициях национального реализма, творчество художника является новой и уникальной интерпретацией древних художественных и национальных нравственных ценностей. Это результат его глубокого использования национальных духовных традиций, которые можно увидеть в живописных и черно-белых композициях художника как успешный результат традиции и современности.

**Ключевые слова**: традиция, современный, независимость, художник, произведение, национальный.

**Turkan Abbasova**

**The role of Ali Verdiyev in the formation of artistic traditions of the fine arts of Azerbaijan**

**Summary**

The role of Ali Verdiyev in the formation of a rich cultural heritage and artistic traditions in the history of our visual art is undeniable. The gradual weakening of the established dictatorship in the national consciousness contributes to the formation of individual artistic principles and the personality of artists. The optimistic spirit of folk art seemed to conform to the social structure and ideological and political principles of that era. Ali Verdiyev's artistic and aesthetic or artistic and technical solution is based on the traditions of national realism, the artist’s work is a new and unique interpretation of ancient artistic and national moral values. This is the result of his deep use of national spiritual traditions, which can be seen in the painter’s paintings and black and white compositions as a successful result of tradition and modernity.

**Keywords**: tradition, modern, independence, artist, work, national.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 21.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 31.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dosent Bayram Hacızadə**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**